**Ziya Zəfər oğlu Əliyev**

**UOT: 5308.01; JEL: E20.**

# Azərbaycanda davamlı iqtisadi inkişaf çağırışları və yeni iqtisadi siyasət modelinin əsas prinsipləri

***Xülasə***

*Məqalə Azərbaycanda davamlı iqtisadi inkişafın çağırışlarının effektiv ünvanlanması üçün zəruri olan yeni strateji iqtisadi siyasət modelinin formalaşması məsələlərini əhatə edir. Məqalədə iqtisadi inkişafla bağlı müasir ədəbiyyatların icmalı təqdim olunmuş və son üç-dörd il ərzində bir neçə ölkənin iqtisadi inkişafda əldə etdiyi uğurları müəyyən edən əsas amillər icmallaşdırılmışdır. Bununla yanaşı, əsas inkişaf amilləri, həmçinin dövlətin müdaxiləsinin zəruriliyi aşkarlanmış və iqtisadi inkişafın əldə olunmasında dövlətin effektiv rolunun prinsipləri müəyyən olunmuşdur. Məqalədə həmçinin yüksək və dayanıqlı iqtisadi artım tempinə malik olan ölkələrdə tətbiq olunan əsas iqtisadi siyasi islahat tədbirləri ümumiləşdirilmiş, Azərbaycanda iqtisadi inkişafın yeni modelinin qəbul edilməsi üçün iqtisadi islahatların əsas prinsipləri müəyyənləşdirilmişdir. Burada Azərbaycanda həyata keçirilməsi zəruri olan iqtisadi siyasət islahatlarının qısa məzmunu təqdim olunmuşdur.*

***Açar sözlər:*** *iqtisadi artım, iqtisadi inkişafın əsas amilləri, institutlar, insan kapitalı, sənayeləşmə, məhsuldarlıq, iqtisadi islahatlar*

## İqtisadi artımın mövcud vəziyyəti və qarşıdakı çağırışlar

2004-2014-cü illərdə Azərbaycanda yüksək templi iqtisadi inkişaf nəticələri əldə edilmiş, ümumi daxili məhsul (ÜDM) 3.3 dəfə artmış və orta illik artım tempi (12%) orta dünya göstəricisini 3 dəfə üstələmişdir. Ölkə adambaşına düşən gəlir səviyyəsinə görə (2014-cü ildə 7.9 min ABŞ dolları) yuxarı-orta gəlir qrupuna daxil olmuşdur. Lakin, 2014-cü ildən etibarən neftin qiymətinin kəskin düşməsi milli iqtisadiyyatın inkişafına ciddi mənfi təsir göstərmişdir. Belə ki, 2014-2019-cu illərdə ölkədə orta illik iqtisadi artım tempi 1%-dən də aşağı düşmüşdür. Nəticədə, ölkə dünya üzrə orta iqtisadi artımı tempindən əhəmiyyətli (3.5%) geri qalmağa başlamışdır**.** Hazırda adambaşına düşən ÜDM-ə görə ölkəmiz (4,6 min dollar) dünya üzrə orta səviyyədən 2,5 dəfə aşağıdır və mövcud iqtisadi artım templəri dəyişməzsə bu fərq yaxın gələcəkdə daha da böyüyəcəkdir.

Məlumdur ki, 2004-2014-cü illərdə iqtisadi inkişaf əlverişli qlobal iqtisadi mühit, yüksək neft qiymətləri və neft hasilatı bumu şəraitində dövlətin maliyyə imkanlarının əhəmiyyətli artımı və bu səbəbdən dövlət xərclərinin iqtisadi artımın əsas drayverinə çevrilməsi ilə izah olunur. Lakin, hazırda ölkədə neft hasilatının artımı sabitləşmiş, dünya neft qiymətləri iki dəfə aşağı düşmüş, qlobal iqtisadi şərait xeyli dəyişərək inkişaf etməkdə olan ölkələr üçün artım imkanlarını azaltmışdır. Dünyanın aparıcı iqtisadiyyatlarda potensial iqtisadi artımın aşağı düşməsi, iri inkişaf etməkdə olan ölkələrdə (əsasən Çin) artım templərinin zəifləməsi, son 4-5 ildə hasilat sənayesinə izafi investisiyaların qoyulması səbəbindən dünya əmtəə qiymələrinin uzun müddət aşağı səviyyədə qalacağı, qlobal maliyyə şəraitinin sərtləşməyə başlaması qarşıdakı dekadada qlobal iqtisadi şəraitin ölkəmiz üçün əlverişli olmayacağını düşünməyə əsas verir. Növbəti illərdə ölkədə iqtisadi inkişafın davam etdirilməsi yeni, qeyri-ənənəvi artım drayverləri ilə mümkündür. Beləliklə, Azərbaycanda davamlı və yüksək templi iqtisadi inkişafın təmin olunması baxımından bir sıra mürəkkəb çağırışlar yaranmışdır.



*©Ziya Zəfər oğlu Əliyev AMEA İqtisadiyyat İnstitutu, dissertant*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

Ölkəmizin üzləşdiyi iqtisadi inkişaf çağırışlarının düzgün və dərindən başa düşülməsi, iqtisadi inkişafı təmin edəcək modelin formalaşdırılması üçün dünya inkişaf hekayələrinin dərindən öyrənilməsi zəruridir. Dünyanın hazırkı iqtisadi inkişaf xəritəsinə baxdığımızda fərqli inkişaf səvviyyələri əldə etmiş ölkə qruplarına rast gəlirik. İnkişaf etməkdə olan ölkələrdəki orta həyat səviyyəsi inkişaf etmiş ölkələrlə müqayisədə təqribən 10 dəfə aşağıdır. Dünyada həyat səviyyələrinin belə divergensiyası son üç əsrdə yaranmış, XX əsrin ikinci yarısında daha da dərinləşmişdir.

Bununla belə, son illər inkişaf etməkdə olan dünyada bəzi ölkələrin davamlı və yüksək templi iqtisadi artım nailiyyələrinə şahidlik etmişdir. Bu dövrdə bəzi Asiya (Koreya, Sinqapur, Tayvan, Hon-Konq, Çin, Malayziya) və Latın Amerikası ölkələrində (Çili, Peru, Uruqvay) həyat səviyyəsi ən azı üç dəfə yüksəlmişdir. Lakin, inkişaf etməkdə olan ölkələrin (İEOÖ) bəzilərində yüz illiklər ərzində müşahidə olunan staqnasiya davam etməkdədir. Digərlərində isə müəyyən dövrdə iqtisadi artım olsa da yenidən orta gəlir tələsinə düşərək inkişafın davamını gətirə bilməmişlər (Acemoglu 2012). Ümumiyyətlə, II Dünya müharibəsindən bəri ölkələrin iqtisadi artım təcrübələrini dörd qrupa bölmək olar

- olduqca cüzi və ya sıfır iqtisadi artıma malik qrup;
- aşağı templi iqtisadi artıma (1-2%) malik qrup;
- epizodik yüksək iqtisadi artım tempinə (4,5%-dən yuxarı) malik qrup;
- yüksək və davamlı iqtisadi artım tempinə malik qrup ölkələr. Davamlı və epizodik olaraq yüksək artım tempini əldə etmiş ölkələrın sayı 30-dan artıq deyil (Rodrik 2013).

**Nəzəri baxış**

İnkişaf etməkdə olan dünyada bir çox ölkələrin on illər boyu davam edən staqnasiyadan çıxa bilmədikləri halda bəzi ölkələrin davamlı və yüksək iqtisadi artım tempini əldə etmələrinin bir sıra tarixi, iqtisadi, siyasi və digər səbəbləri vardır. Təbii ki, ən başlıca səbəblər bu ölkələrin iqtisadiyyatlarının daxili strukturunda baş verən pozitiv dəyişikliklər, bu dəyişiklikləri yaradan siyasətlər və siyasətlərə təsir edən qlobal geosiyasi və iqtisadi meyillər, habelə daxili tarixi proseslərlə bağlıdır (Rodrik 2013). Sözü gedən ölkələrin iqtisadi uğurlarının tədqiqi şübhəsiz ki, davamlı iqtisadi tərəqqi əldə etmək istəyən ölkələrdə inkişaf yönlü islahatların işlənilməsi üçün vacibdir. Əlbəttə, hər bir ölkənin uğur hekayəsində daxili ölkə xüsusiyyətləri mühüm rol oynasa da, digərləri üçün tətbiq oluna biləcək ümumi qanunauyğunluqlar da mövcuddur.

"Solow"nun iqtisadi artım modelindən məlumdur ki, iqtisadi artım kapital, əmək (xam və bacarıqlı) və bu amillərin ümumi məhsuldarlığından asılıdır. Amillərin ümumi məhsuldarlığı iqtisadiyyatın texnoloji səviyəsi, idarəetmənin effektivliyi və səmərəliliyi ilə formalaşır. Adambaşına düşən ümumi gəlirlər üzrə ölkələr arasındakı fərqlər iqtisadiyyatın kapitallaşması və amillərin ümumi məhsuldarlığı arasında olan fərqlərdən irəli gəlir. Bu amillər iqtisadi inkişafın ilkin determinantlarıdır. İqtisadi inkişafın təməl amillərini isə iqtisadiyyatın institusional strukturu, insan kapitalı, ölkənin coğrafi (natural endowment) mövqeyi və s. təşkil edir. Çağdaş mütəffəkirlər arasında bu amillərin hansının birinci olması barədə akademik debatlar davam etsə də insan bacarıqlarının və institutların keyfiyyəti dünya ölkələri arasında iqtisadi inkişaf fərqlərini izah edən başlıca amillər kimi yekdilliklə qəbul olunur (Glaeser 2004).

İqtisadiyyata investisiyaların və mütərəqqi texnologiyaların cəlbi, kapitalın və əməyin məhsuldarlığının yüksəldilməsi iqtisadiyyatın institusional strukturundan və insan kapitalının keyfiyyətindən xeyli asılır. İnvestisiyaların tam qorunması, biznesin müqavilə hüquqlarının effektiv təmin edilməsi, biznesin üzləşdiyi makro və mikroiqtisadi risklərin məqbul səviyyəyə endirilməsi, ictimai infrastrukturun və ictimai xidmətlərin keyfiyyəti, habelə bütün bunları



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təmin etməli olan dövlət administrasiyasının vəziyyəti iqtisadiyyatın institusional strukturundan asılıdr. Uğurlu ölkələrin təcrübələrində inkişafı dəstəkləyən institusional strukturun bərqərar olması üçün aparılan islahatlar əsasən müstəqil və şəffaf məhkəmə sisteminin qurulmasını, rəqabətin dəstəklənməsini, ciddi iqtisadi distorsiya yaradan dövlət müdaxilələrinin aradan qaldırılmasını, xarici ticarətin və maliyyə bazarlarının liberallaşdırılmasını və düzgün tənzimlənməsini, etibarlı və prudensial makro-iqtisadi siyasət çərçivəsinin, ən əsası isə cavahdeh və şəffaf dövlət bürokratiyasının formalaşdırılmasını hədəflənmişdir. İnsan kapitalının inkişafı üçün təhsil və səhiyyə sistemində ardıcıl islahatlar aparılaraq cəmiyyət üzvlərinin bilik və bacarıqları, sağlamlıq vəziyyəti əhəmiyyətli yüksəldilmişdir. Bu islahatlar iqtisadiyyata yerli və xarici investisiyaların genişlənməsi, qabaqcıl texnologiyaların miqyaslı və uğurlu tətbiqi üçün əlverişli biznes mühiti yaratmışdır.

Bununla belə, son bir neçə dekada ərzində iqtisadi uğur hekayələri yaratmış ölkələrin tədqiqi göstərir ki, müəyyən dövrlərdə əldə olunan iqtisadi artım templəri tamamilə təkcə təməl amillərdə olan irəliləyişlə izah olunmur. Belə ki, bu ölkələr təməl amillərdə ciddi irəliləyişlər olmadan da yüksək iqtisadi artım templəri əldə etməyə başlamışlar. Müəyyən dövrlərdə təməl iqtisadi amillərin aşağı inkişaf səviyyəsində belə dövlət bazara müdaxilə etməklə onun (bazarın) səmərəliliyinin artmasına, nəticədə iqtisadi artımın yüksəlməsinə nail ola bilər. Əgər ölkədə institutlar və ixtisaslı əmək qüvvəsi zəifdirsə bunun nəticəsində yaranmış bazarın yüksək transaksiya xərcləri (bazar iştirakçılarının apardığı iqtisadi (o cümlədən alış və ya satış) əməliyyatlarda çəkdiyi xərclərin həcmi) dövlətin əlavə tədbirləri ilə yumşaldıla bilər. Məsələn, əgər ölkədə mülkiyyət və müqavilə hüquqlarını qoruyan hüquqi rejim və məhkəmə sistemi zəifdirsə o zaman dövlət müəyyən sənaye sahələrinə xarici və daxili investisiya axını üçün dövlət zəmanətindən, vergi güzəştlərindən və ya dövlət-özəl partnyorluğunun müxtəlif formalarından istifadə edə bilər. Ölkə qeyri-liberal xarici ticarət rejimi tətbiq edirsə dövlət xüsusi sənaye klasterləri üçün imtiyazlı idxal və ixrac rejimi yarada bilər. Başqa bir misal. Əgər sənayeyə investisiyaların cəlbi üçün ölkədə ixtisaslı əmək qüvvəsi məhduddursa dövlət işçilərin treyninqi ilə bağlı investorların xərclərini kompensasiya edə bilər.



Sənaye (emal) iqtisadiyyatın digər sahələrindən fərqli olaraq təməl amillərdə ciddi irəliləyiş olmadan da müəyyən dövrdə (müvəqqəti) yüksək artım potensialına malikdir. Məsələn, Çin təməl göstəricilərinə görə İsveçdən əhəmiyyəli dərəcədə geri qalır. Lakin, bu o demək deyildir ki, Çin hər hansı sənaye məhsulunun istehsalı üzrə İsveçlə rəqabət apara bilməz. Yekin ifadə etsək, təməl amillərin zəif olmasından irəli gələn distorsiyaların mənfi təsiri dövlətin fəal rolu ilə kompensasiya edilməklə sənayedə cəlbedici biznes imkanları yarada bilər (Rodrik 2013).

Sənayeləşmənin İEOÖ-lərdə iqtisadi artımın müvəqqəti (bu bir və ya üç ildə davam edə bilər) drayverinə çevrilməsi bu ölkələrdə milli valyutanın aşağı dəyərlənməsi ilə bağlıdır. İEOÖ-lərdə qeyri-ticari (non-tradables) qiymətlər inkişaf etmiş ölkələrlə müqayisədə əhəmiyyətli aşağı olur. Ticari qiymətlər isə təqribən bir-birinə yaxın formalaşır. Nəticədə, milli valyutanın real məzənnəsinin (ticari qiymətlərin qeyri-ticari qiymətlərə nisbəti) aşağı dəyərdə formalaşması emal sənayesi üçün rəqabət üstünlükləri yaradır. Zəif təməl amillərdən irəli gələn bazar distorsiyalarının yaratdığı yüksək transaksiya xərcləri dövlətin fəal müdaxiləsi ilə kompensasiya etməklə ölkələr bu üstünlüklərindən istifadə edə bilərlər. Bu İEOÖ-lərdə sənaye və ya ixrac yönlü iqtisadi artım modelinin başlıca xüsusiyyətidir (Rodrik 2013). Beləliklə, ilkin dövrlərdə yüksək iqtisadi artım həmin ölkələrdə dövlətin fəal müdaxiləsi nəticəsində yaranan sənayeləşmə ilə mümkün olmuşdur.

Təbii ki, təməl amillərdə irəliləyişə nail olmadan sənayeləşmənin təkcə dövlət müdaxiləsi ilə dəstəklənməsi ilə yüksək və davamlı inkişafı təmin etmək mümkün deyildir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Çin təməl amillərin inkişafı üçün dərin islahatlar aparmadan dövlətin fəal müdaxiləsi ilə sənayeləşmə siyasəti nəticəsində 1990-cı illərin əvvəllərindən başlayaraq üç il ərzində yüksək iqtisadi artım tempi əldə etmiş və təqribən üç dəfə artmışdır. Lakin, təməl amillərdə ciddi irəliləyişlər baş vermədiyindən təkcə dövlət müdaxiləsinə əsaslanan sənayeləşmənin iqtisadi artım drayveri kimi imkanları tükənmişdir. Nəticədə, Çində iqtisadi artım tempi sürətlə aşağı enməkdədir. Çin iqtisadiyyatı hazırda investisiya (əsasən tikinti) və istehlak yönlü artım modelinə transformasiya olunmaqdadır. Lakin, bu modelin iqtisadi artım yaratma gücü təməl amillərin inkişafından və onların müəyyən kritik səviyyədə akkumulyasiyasından asılıdır. Təməl amillərdə inkişafın əhəmiyyətli olmaması Çinin yeni iqtisadi modelinin uğurlu olacağını sual altında qoyur.

Empirik tədqiqatlar göstərir ki, inkişafın sənayeləşmə mərhələsində ölkə adambaşına düşən ÜDM-in 12-15 min dollara çatana qədər sənaye sahəsinin ümumi məhsul buraxılışında payı 25%-ə qədər yüksəlir (Rodrik 2015). Bu mərhələ inkişafın industrializasiya mərhələsi, inkişafın sonrakı mərhələsi isə daha çox xidmət sahələrinin genişlənməsi hesabına olduğundan de-industrializasiya mərhələsi adlanır. İqtisadi inkişafın de-industrializasiya mərhələsi təməl amillərin inkişafı ilə mümkündür (Rodrik 2013).

Təməl amillərin iqtisadi artımın başlıca drayverinə çevrilməsi üçün onların inkişaf edərək müəyyən kritik səviyyəyə qədər akkumulyasiyası tələb olunur ki, bu da bir neçə ild tələb edə bilər. Məsələn, Latın Amerikası ölkələri (xüsusilə El-Slavador) 1990-cı illərdə geniş miqyasda institusional islahatlar, təhsil islahatları aparmaqla iqtisadiyyatın institusional strukturunu və təhsil sistemini xeyli modernləşdirmişlər. Lakin, gözlənilənlərdən fərqli olaraq XXI yüzilliyin ilk dekadalarında bu ölkələrdə iqtisadi artım tempi aşağı olmaqda davam edir.

Koreya, Sinqapur, Tayvan və Honq-Konq dövlətin müdaxiləsi ilə sənayeləşmənin və təməl amillərin inkişafının uğurlu sintezini yaradaraq davamlı yüksək iqtisadi artım tempini əldə etmişlər. Bu ölkələr müxtəlif vaxtlarda əvvəlcə dövlətin iqtisadiyyatda fəal iştirakı yolu ilə sənayeləşmə üçün bütün imkanlardan maksimum istifadə edərək iqtisadi artıma nail olmuş, buna paralel olaraq təməl amilləri inkişaf etdirməklə artımın sonrakı mərhələlərini, bununla da davamlı inkişafı gətirə bilmişlər.

**Azərbaycanın uzunmüddətli iqtisadi inkişaf modelinin xüsusiyyətləri**

Azərbaycanda mövcud həyat səviyyəsini növbəti il ərzində ən azı dünya üzrə orta statistik göstəriciyə yaxınlaşdırmaq üçün adambaşına düşən ÜDM-in ikiqat artımına nail olunmalıdır. Bunun üçün davamlı olaraq 5-7%-lik orta illik iqtisadi artım tempinin əldə edilməsi zəruridir. Yüksək və davamlı iqtisadi artım yalnız hər il investisiyaların genişlənməsi, kapitalın və əməyin məhsuldarlığının (və ya ümumi amil məhsuldarlığının) yüksəlməsi hesabına mümkündür. İqtisadiyyatı davamlı olaraq yüksək templə artmış ölkələrin təcrübəsində investisiyaların ÜDM-ə nisbəti 20-25%, o cümlədən özəl investisiyalar üzrə 15-17%, dövlət investisiyaları üzrə isə 5-8% təşkil edir (Spence 2011). İnvestisiyaların genişlənməsi yeni texnologiyaların tətbiqi, məhsuldarlığın və deməli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəlməsi, nəticədə ixracın yüksək templərlə artması ilə müşayiət olunur.

- Ölkəmizdə bu hədəflərə nail olmaq üçün təbii ki,
- bazarların səmərəli fəaliyyətini təmin edən çevik struktur (institusional) islahatlar;
- sənayeləşməni dəstəkləyən iqtisadiyyata dövlətin məqsədyönlü müdaxiləsi
- yeni rəqabət üstünlükləri qazandıracaq təməl amillərin - insitusional kapitalın və insan kapitalının inkişafı ən ümumi inkişaf istiqamətləridir.

Çevik struktur islahatlar əsasən özəl investorların (daxili və xarici) iqtisadiyyata inamının gücləndirilməsinə, transaksiya xərclərinin və risklərin əhəmiyyətli aşağı



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

salınmasına, rəqabətin təmin edilməsinə hədəflənməlidir. Struktur islahatlar aşağıdakı istiqamətlərdə formalaşa bilər:

- Dövlət sektorunda qabaqcıl idarəetmə təcrübələrini, o cümlədən özəl-dövlət tərəfdaşlığını tətbiq etməklə onun səmərəliyini yüksəltmək;
- Dövlət tərəfindən daim dəstəklənən və inkişaf etdirilən yüksək rəqabət mühiti yaratmaqla özəl sektorun investisiya təşəbbüslərini və texnoloji yeniliklərini genişləndirmək;
- İqtisadiyyatın institusional çərçivəsini (hüquqi rejim, hüquq mühafizə, o cümlədən məhkəmə, tənzimləmə və s) müasirləşdirməklə özəl biznesin etimadını yüksəltmək;
- Xarici ticarətin tam liberallaşdırılması (ÜTT-yə üvlük) ilə ölkənin rəqabət üstünlüklərini reallaşdırmaq;
- Maliyyə bazarının daha da liberallaşdırılması və effektiv tənzimlənməsi ilə maliyyəyə çıxışı əhəmiyyətli yaxşılaşdırmaq;
- Dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən effektiv makroiqtisadi siyasət qaydalarını formalaşdırmaq.

Sənayeləşmə siyasəti ilk növbədə ölkənin malik olduğu təbii imkanların (natural endowment) və ucuz, lakin ixtisaslı işçi qüvvəsinin yaratdığı beynəlxalq üstünlüklərə əsaslanmaqla bu sahələrə xarici investisiyaların axınını dəstəkləyə bilər. Ölkəmizin malik olduğu müxtəlif iqlim tipləri ayrı-ayrı regionlar üzrə sənaye klasterlərin yaradılması imkanlarını açır. Müxtəlif vergi, gömrük güzəştlərini nəzərdə tutan, habelə xüsusi hüquqi rejimə və dövlət xidmətlərinə asan çıxışa malik olan, özəl idarə olunan (private-led) sənaye bölgələrinin yaradılması bu imkanların reallaşdırılmasına xidmət edə bilər. Ölkəmizin Avrasiya məkanında xüsusi coğrafi mövqeyindən irəli gələn iqtisadi fürsətləri reallaşdırmaq üçün xüsusi iqtisadi zonalarının yaradılması və burada qlobal dəyər zəncirinin bir həlqəsinə çevrilən sənayenin yaradılması imkanları böyükdür. Bütövlükdə, sənayeləşmə siyasəti yalnız özəl, xüsusilə xarici investisiyaların cəlbini hədəfləməli, investorların transaksiya xərclərinin və risklərinin minimuma endirilməsinə, etibarlı təchizatçılara və xarici bazarlara çıxışın dəstəklənməsinə xidmət etməlidir.



*Ölkəmizdə iqtisadi inkişafın növbəti mərhələsi yalnız sənayeləşmə ilə mümkündür. Bu mərhələdə qeyri-neft iqtisadiyyatında sənayenin ÜDM-də payının 8-9%-dən 25%-ə qədər yüksəldilməsi başlıca inkişaf hədəfi olmalıdır. Əlbəttə sənayeləşmə siyasəti ona adekvat olan aqrar siyasətlə də tamamlanmalıdır. Aqrar sahədə məhsuldarlığın artımı üçün bu sahəyə yeni investisiya və texnologiyaların cəlbinə xidmət edən effektiv subsidiya, infrastruktur və bazarın koordinasiya uğursuzluğunun aradan qaldırılmasına yönəlmiş təşkilatı tədbirlər vacibdir.*

Sənayeləşmə siyasəti dövlətin iqtisadiyyata fəal müdaxiləsi ilə mümkün olduğundan onun uğurlu realizasiyası üçün yuxarıda qeyd etdiyimiz çevik struktur islahatların aparılması zəruridir. Ayrı-ayrı ölkələrin təcrübəsi göstərir ki, meritokratik və nəticələrə cavabdeh dövlət bürokratiyası formalaşmamışsa dövlətin iqtisadiyyata müdaxiləsi uğursuz nəticələrə gətirib çıxarır.

**Nəticə**

İqtisadi artımın orta və uzunmüddətli drayverləri kimi insan kapitalının və insitusional kapitalın inkişafı iqtisadiyyata yeni rəqabət üstünlükləri qazandırır. Ölkə insanının ən müasir bilik və bacarıqlara, pozitiv sosial dəyərlərə yiyələnməsi və yüksək sağlamlığa malik olması təhsil və səhiyyə siyasətinin qabaqcıl beynəlxalq səviyyəyə çatdırılmasını tələb edir. İqtisadiyyata investisiyaların artan həcmlə daim genişlənməsini və ən

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

yeni texnologiyaların çevik adaptasiyasını təmin edən, habelə biznesdə ən qabaqcıl idarəetmə təcrübələrini çevik tətbiq edən özəl daxili və xarici investorlar üçün dost institusional mühitin daim inkişafı tələb olunur. Özəl mülkiyyət institutlarının - özəl mülkiyyət hüquqlarını qoruyan və müqavilələrin məcburi icrasını təmin edən institutların inkişafı vacibdir. Bununla belə, biznesin transaksiya xərclərinin minimumlaşdırılması üçün biznesin effektiv tənzimlənməsini və adekvat ictimai xidmətlərin həyata keçirilməsini təmin edən meritokratik və nəticələrə cavabdeh bürokratik aparatın formalaşdırılması zəruridir. Ölkə iqtisadiyyatının regional və dünya iqtisadi sisteminə inteqrasiyasının düzgün strategiya əsasında idarə olunmaqla təmin edilməsi mühümdür.

**Ədəbiyyat**

1. Acemoglu D, and Robinson J. (2012) "Why National Fail. The Origins of Power, Prosperity and Poverty". Crown Publishers.
2. Acemoglu D, S Johnson, A. Robinson. (2001). "The Colonial Origins of Comparative Development: An Empirical Investigation," American Economic Review 91, 1369-1401.
3. Acemoglu, Robinson and Johnson (2000) "Rise of Europe: Atlantic Trade, Institutional Change and Economic Growth". American Economic Review
4. Acemoglu D, Johnson S, et al. (2001) "An African Success Story: Botswana". Department of Economics, Massachusetts Institute of Technology.
5. Aslund Anders 2007. "How Capitalism Was Built, The Transformation of Central and Eastern Europe, Russia, and Central Asia", Peterson Institute for International Economics, Washington, D.C.
6. Bogdan Glavan 2007. "Coordination failures, Poverty Traps, Big Push Policy and Entrepreneurship: A Critical View". Munich Personal RePEc Archive.
7. Chousa J, Khan H. (2004). "Assessing Institutional Efficiency, Growth and Integration". www.e.u.tokyo.ac.jp/cirge/research.
8. Easterly, William. 2001 "Educated for What?" excerpted from the Elusive Quest for Growth, Cambridge: MIT Press, 2001, pp.71-78 and 82-84.
9. Easterly William (2005) "National Policies and Economic Growth". Handbook of Economic Growth vol. 1A, North-Holland, Amsterdam.
10. John F. Helliwell, 1994. "Empirical Linkages Between Democracy and Economic Growth," NBER Working Papers 4066, National Bureau of Economic Research, Inc
11. Jonathan Gruber, Public Finance and Public Policy, 2005, worth publisher (p291)
12. Knack S, Keefer P. (1997) "Does Social Capital Have an Economic Payoff? A Cross-Country Investigation" The Quarterly Journal of Economics, Nov 1997.
13. Kaufmann Daniel et al. 2006 "Governance Matters V: Aggregate and Individual Governance Indicators for 1996-2005". The World Bank
14. Hristos Doucouliagos & Mehmet Ulubasoglu, 2006. "Democracy and Economic Growth: A Meta-Analysis," Economics Series 2006_04, Deakin University, Faculty of Business and Law, School of Accounting, Economics and Finance.
15. Glaeser E, Porta R, Lopez-de-Silanes F, (2004) "Do Institutions Cause Growth?" Journal of Economic Growth 9, 271-303.
16. Gerald W. Scully (1995) "Multiculturalism and Economic Growth" NCPA Policy Report.
17. Goh Chor Boon (2015) "Why Singapore Succeeded: Applying the Acemoglu and Robinson - Sachs Debate". National Institute of Education in Singapore.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

18. Olson M, (1993) "Dictatorship, Democracy, and Development" American Political Science Review. Vol. 87, No 3
19. Lindert P, (2003) "Voice and Growth: Was Churchill Right?" The Journal of Economic History, Vol. 63 No. 2.
20. Mulligan C, Gil R, Martin X. (2004) "Do Democracies Have Different Public Policies than Non-democracies?" Journal of Economic Perspective. Vol 8, No 1.
21. Millennium Challenge Corporation (2010) "Guide to the MCC Indicators and the Selection Process".
22. North C. Douglass 1997. "The Process of Economic Change". The Washington University in St. Louis.
23. Rodrik D (2007). "Paradox of Globalisation, Democracy and the Future of the World Economy". W.W. Norton & Company.
24. Rodrik D (2013) "The Past, Present, and Future of Economic Growth" Global Citizen Foundation.
25. Rodrik D. (2004). "Institutions Rule: The Primacy of Institutions Over Geography and Integration in Economic Development". Journal of Economic growth, 9, 131-165.
26. Rodrik D. (2006) "Good-by Washington Consensus, Hello Washington Confusion?" Journal of Economic Literature. Harvard Univesity.
27. Rodrik Dani et al 2005 "Growth Diagnostics". John Kennedy School of Government, Harvard University.
28. Rodrik Dani, 2015 "Premature Deindustrialization" School of Social Science, Institute for Advanced Study, Princeton, NJ 08540
29. Sachs Jeffrey 2012. "Government, Geography and Growth. The true Drivers of Economic Development" Council on Foreign Relation, Inc.
30. Spence Michael 2011. "The next convergence" Picador, Farrar, Straus and Giroux, New York
31. Tan Yin Ying, et al. (2008) "Perspectives on Growth: A Political Economy Framework. Lessons from the Singapore Experience". Commission on Growth and Development, The World Bank.
32. Weil N David 2009 "Economic Growth" Second edition, Pearson Education, Inc. p 407-438.
33. Winters Jeffrey A. (2011) "Oligarchy". Northwestern University, Cambridge University Press.
34. Музаффарли. Н. (2014) "Социальная ориентированность Экономики в Правистских и Левистских Системах". Национальная Академия Наук Азербайджана, Институт Экономики.
35. Рустамов Э. (2010). "Экономическая модернизация Азербайджана: вызовы и решения". Институт Современного Развития.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Зия Зафар оглу Алиев***

***Проблемы устойчивого экономического развития в Азербайджане и принципы новой модели стратегической экономической политики***

***Аннотация***

*Данная статья поднимает новые проблемы экономического развития, которые требуют от правительства Азербайджана принятия новой модели стратегической экономической политики для эффэктивного решения. В нем дается обзор новейшей литературы по экономическому развитию и рассматриваются фундаментальные факторы, обуславляющие успехи экономического развития, достигнутые несколькими странами за последние три-четыре десятилетия. Раскрыто содержание фундаментальных решающих факторов развития, а также важность вмешательства государства и определены принципы эффэктивной роли государства в успехе экономического развития. В статье также обобщяются основные действия по реформированию экономической политики, которые распространены в странах с высоким и устойчевым экономическим ростом. В нем определены основные принципы содержания экономических реформ для принятия новой модели экономического развития в Азербайджане. Данная стятья предоставляет краткий комплекс реформ экономической политики.*

***Ключевые слова:*** *экономический рост, фундаментальные факторы экономического развития, институты, человеческий капитал, индустриализация, производительность, экономические реформы.*

***Ziya Zafar Aliyev***

***Sustainable economic development challenges in Azerbaijan and principles of a new strategic economic policy paradigm***

***Abstract***

*This article raises the new economic development challenges that require Government of Azerbaijan to adopt a new strategic economic policy paradigm to address them effectively. It overviews recent economic development literature and examines the fundamental factors causing economic development successes that several countries have been achieved over three-four decades. The content of fundamental determinants of development, as well as an importance of government interventions is revealed and principles of effective role of government in economic development success are defined. The article also summarizes the key economic policy reform actions which are common in the countries having high and sustainable economic growth path. It stipulates key princinciples and content of economic reforms to adopt a new economic development paradigm in Azerbaijan. It provides a brief package of economic policy reforms.*

***Keywords****: economic growth, fundamental factors of economic development, institutions, human capital, industrialization, productivity, economic reforms*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 07.10.2019.***
***Çapa qəbul olunub: 10.10.2019.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az